No: 03 2025
https://doi.org/10.64400/ea25-3-16
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# ƏLAVƏ TƏHSİLDƏ KEYFİYYƏTİN ARTRILMASINA MÜASİR YANAŞMALAR

**Polad MƏDƏDOV**[1], **Nizami QULİYEV**[2]

[1]Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı, Azərbaycan
[2]Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
**Yazışılan müəllif:* nizamiguliyev8@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi: 28.08.2025*
*Nəşr edilmə tarixi: 28.10.2025*

**AÇAR SÖZLƏR:**
ixtisasartırma, yenidənhazırlanma, peşə, modul, innovasiya, təhsil

**XÜLASƏ**

Təhsilin məzmununun yeniləşməsi, təlimdə yeni metod və texnologiyaların, dünya təhsil standartlarının tətbiqini, yeni informasiya, tədris elmi-metodiki təminatların hazırlığını nəzərə alaraq, ixtisasartırma və yenidənhazırlanma təhsil sisteminə münasibət yeniləşməli, bu məqsədlə həm təhsil sisteminin rəhbər orqanları, həm də pedaqoji işçilərin fasiləsiz təhsilinin həyata keçirilməsinə diqqət artırılmalı, qarşıya çıxan problemlər birgə həll edilməlidir.

## GİRİŞ

Son illərdə respublikamızın bütün sahələrində olduğu kimi təhsil sahəsində də islahatlar öz təsirini göstərməklə uğurlu nəticələr əldə edilir.

Bu islahatların əsas mahiyyəti və məqsədi yeni pedaqoji təfəkkür işığında təhsilin humanistləşdirilməsi, demokratikləşdirilməsi, fərdiləşdirilməsi, differensiallaşdırılması, humanitarlaşdırılması inteqrasiyası təhsilin milli zəmin və bəşəri dəyərlər prinsipləri əsasında qurulması, ənənəvi passiv təhsildən müasir fəal, yeni intekrativ təlimə keçid, yeni fənn kurikulumlarının uğurlu tətbiqi məsələlərini əhatə edir.

Göstərilənlərlə yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsi pedaqoji kadrların ilkin hazırlığı, ixtisasartırılması, yenidənhazırlanması, təkmilləşdirilməsi işinin səviyyəsini yüksəltməkdən, fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının həyata keçirilməsi səviyyəsindən, bu sahədə yeni konsepsiya və mexanizmlərin tətbiqindən asılıdır.

İxtisasartırma təhsilinin əsas məqsədi hər bir işçinin və ya mütəxəssisin ixtisası üzrə intellektual, peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşmasını, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatından fəal və səmərəli iştirakını təmin etməkdir.

24 oktyabr 2014-cü ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" bunun canlı nümunəsidir. Burada pedaqoji kadrların hazırlığının fasiləsiz proses olması əsas götürülərək, onun keyfiyyətini yüksəlmək məqsədilə ilkin və diplomdan sonrakı pedaqoji təhsilin vahid kontekstdə təşkili aparıcı yer tutur.

Strategiyanın məzmun hissəsində qeyd olunur ki, "Ölkə qarşısında duran növbəti strateji vasitə sosial-iqtisadi həyatın daha da modernləşdirilməsi və qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması yolu ilə davamlı iqtisadi inkişafın təmin edilməsi və əhalinin həyat səviyyəsinin yüksəldilməsindən ibarətdir, Azərbaycan Respublikasının inkişaf Konsepsiyasına uyğun olaraq şəxsə hərtərəfli bilik və bacarıqların verilməsi məqsədi ilə təhsil sisteminin institusional əsasları, infranstrukturu və insan resursları inkişaf etdirilməlidir. Təhsilin inkişafı ölkədə əhalinin rifahının

yaxşılaş¬ması, həmçinin fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır. Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazasında layiqli yer tutmaq və ömür boyu təhsil prosesinə qoşulmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir".

Strategiyanın əsas məqsədini Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiyası, əsas mahiyyətini humanistləşdirmə, demokratikləşdirmə, fərdiləşdirmə, differensiallaşdırma, inteqrasiya və humanitarlaşdırma prinsipləri təşkil edir. Bunun üçün milli zəminə, ümumbəşəri dəyərlərə əsaslanan dünyəvi təhsil sistemini formalaşdırılması və təhsil alanın şəxsiyyət kimi yetişdirilməsi, onun təlim-tərbiyə prosesinin bərabərhüquqlu subyektinə çevrilməsi son dərəcə əhəmiyyətli və zəruridir.

İxtisasartırma sahəsində beynəlxalq təcrübəyə əsaslanaraq aşağıdakı yanaşmaları əsas tutmaq məqsədə uyğundur:

*1. Yüksək ixtisas dərəcəsi əldə etmək.* Kadrların ali və ya orta ixtisas təhsili müəssisələrini bitirdikləri üçün pedaqogika, psixologiya və müvafiq ixtisas fənləri üzrə biliklərə, öyrənənləri istiqamətləndirmək və onların öyrənməsinə köməklik etmək üçün lazım olan əsas bacarıqlara və səriştələrə, həmçinin təhsilin idarə edilməsi, onun ictimai, siyasi və mədəni əsasları haqqında müəyyən təsəvvürlərə malik olmalıdır.

*2. Ömür boyu öyrənmək.* Kadrların əmək fəaliyyətləri dövründə fasiləsiz olaraq öz bilik və peşəkarlıq səviyyələrini yüksəltməlidirlər. İşə götürənlər kadrları peşə üzrə bilik və bacarıqlarını, təfəkkürünü yeniləşdirməyin, inkişaf etdirməyin və təkmilləşdirməyin zəruriliyini, həmçinin fəaliyyətlərinin səmərəliliyini artırmaq üçün onların fasiləsiz olaraq yeni biliklər və bacarıqlar əldə etməsinin əhəmiyyətli olduğunu nəzərə alaraq ixtisasartırma təhsilini təşkil etməlidir.

*3. Fəallıq və təcrübə mübadiləsi.* Kadrların ixtisaslarını artırmaq və peşəkarlıq səviyyələrini daha da inkişaf etdirmək məqsədi ilə daim fəal axtarışda olmalı, ölkə daxilində və beynəlxalq səviyyədə həmkarları ilə təcrübə mübadiləsi aparmalıdır.

*4. İxtisasartırma təhsili tərəfdaşlıq əsasında həyata keçirilən fəaliyyətdir.* Kadrların ixtisasartırma təhsilinə olan tələbatlarını, arzu-istəklərini öyrənmək və təklif olunan təhsil proqramlarında nəzərə almaq üçün əlavə təhsil müəssisələri öz fəaliyyətlərini müvafiq təhsil müəssisələri, təhsili idarəetmə orqanları və digər maraqlı tərəflərlə qarşılıqlı əməkdaşlıq şəraitində təşkil etməlidir.

İxtisasartırma təhsili nəticəsində müəllimlər bir-biri ilə əlaqədə olan aşağıdakı istiqamətlərdə bilik, bacarıq və peşəkar dünyagörüşlərini yeniləşdirir, təkmilləşdirir və inkişaf etdirir:

- ümumi pedaqoji-psixoloji biliklər üzrə bacarıqlar və peşəkar düşüncə tərzini;
- fənyönümlü biliklər üzrə bacarıqlar və peşəkar düşüncə tərzini;
- ümumi mədəni səviyyəsini və öz peşəsi haqqında təsəvvürləri əks etdirən biliklər, bacarıqlar, vərdişlər və s.
- İxtisasartırma təhsilinə cəlb olunan müəllimlər həmçinin aşağıdakı sahələr üzrə yeni bilik, bacarıq və vərdişlər əldə edirlər:
- bacarıqları ilə birlikdə işləmək: ictimai həyatda fəal iştirak edir, hər şagirdə bir fərd kimi yanaşır və onun gizli bacarıqlarını üzə çıxara bilir, öz təlim və tədris fəaliyyətini təkmilləşdirmək məqsədi ilə həmkarları ilə əməkdaşlıq edir;
- biliklərlə, texnologiya və məlumatla işləmək: biliyin və texnologiyanın müxtəlif növləri ilə, o cümlədən İKT-nin təlim və tədris fəaliyyətində səmərəli şəkildə tətbiq edir, məlumat şəbəkələrində şagirdləri istiqamətləndirir və onlara kömək edir;
- cəmiyyətlə əlaqəli işləmək: sosial peşəkarlığa malik olurlar, müasir dünya standartlarına uyğun olaraq şagirdlərin hərtərəfli inkişafında öz vəzifələri üçün məsuliyyət daşımağa hazırlanmalarında fəal iştirak edirlər

*İxtisasartırma təhsilinin təşkili məsələləri.*

İxtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla ali, orta ixtisas və ilk peşə ixtisas təhsili pillələrinin hər hansı birini bitirmək haqqında dövlət sənədi olan kadrların fasiləsiz təhsil almaq imkanını təmin etmək məqsədi ilə əlavə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil

növüdür. İxtisasartırma təhsilində dinləyicilərin biliklərinin və peşəkarlıq səviyyələrinin, dünyagörüşlərinin müxtəlif istiqamətlərdə inkişaf etdirilməsi təlim modulları üzrə həyata keçirilir.

Modul ixtisasartırma təhsili prosesində nəzərdə tutulmuş müəyyən istiqamətdə bilik, bacarıq və vərdişlərin əldə edilməsinə, dünyagörüşün formalaşdırılmasına istiqamətlənmiş biliklər sistemidir.

İxtisasartırma təhsili üzrə təlim modulları bunlardır:

- peşə fəaliyyətinin ümumi əsaları üzrə təlim;
- ixtisas sahələri üzrə təlim;
- innovasiyalar üzrə təlim;

Birinci və ikinci modula daxil olan ixtisasartırma proqramları Azərbaycan təhsil sisteminin ümumi ehtiyac və tələbatının ödənilməsinə, bütövlükdə təhsilin strateji məqsədlərinin həyata keçirilməsinə xidmət edir.

Bu modullar üzrə proqramların siyahısı bir qayda olaraq, Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilir. Bu modullardan fərqli olaraq üçüncü modul üzrə proqramlar isə təhsil işçilərinin fərdi maraq və ehtiyaclarının, tələbatlarının ödənilməsinə xidmət edir. Əslində əlavə təhsil müəssisələri bu modul üzrə müxtəlif təlim proqramları, eyni zamanda proqram mövzuları,məqsədləri, vəzifələri, məzmunu, metodologiyası və təlim saatı ilə bağlı təkliflər verə bilər. Çevik xarakter daşıyan bu proqramlar istənilən sayda ola bilər.

Birinci modul üzrə ümumi məqsədi aşağıdakı şəkildə ifadə etmək olar:

Peşə fəaliyyətinin ümumi əsasları, təhsilin və tədris prosesinin idarə edilməsi, ümumi pedaqogika, psixologiya və sosiologiyanın məzmununda və metodologiyasında yeniliklər, təhsilin fəlsəfi, elmi, metodoloji, siyasi, sosial-iqtisadi, hüquqi əsaslarına aid yeni bilik və bacarıqların aşılanması, yüksək peşə səriştəliliyi və dünyagörüşünün formalaşdırılması.

İkinci modul üzrə ümumi məqsəddə isə aşağıdakı məsələlər əksini tapmışdır:

Pedaqoji kadrların ixtisasları üzrə fənnin didaktikası və metodologiyası, fənnin məzmununda və tədrisi metodikasında yeniliklər, müvafiq təhsil sistemi və onun pilləri üzrə kurikulumların tətbiqi, fənnin tədrisində İKT-dən istifadə və s. üzrə yeni bilik və bacarıqların aşılanması, müvafiq peşə səriştəliliyinin və dünyagörü- şünün formalaşdırılması.

Üçüncü modul üzrə ümumi məqsədi belə izah etmək olar:

Peşə fəaliyyətinə aid innovativ nəzəriyyələrə, metodlara və təcrübəyə, təlim və tədris üzrə yeni texnologiyalara, İKT-yə istinad əsasında təhsil işçilərinə fərdi maraq dairələri və əsas fəaliyyət sahələri ilə bağlı olan yeni bilik və bacarıqların aşılanması, müvafiq peşə səriştəliliyinin və dünyagörüşünün formalaşdırılması.

Müasir elmi-pedaqoji yanaşmalara əsaslanaraq hər bir modul üzrə ümumi məqsədin göstərilməsi gözlənilən ümumi nəticələrin də müəyyənləşdirilməsini tələb edir. Bu baxımdan təcrübə və araşdırmalar göstərir ki, *birinci* modul üzrə gözlənilən ümumi nəticələr aşağıdakı ardıcıllıqla qeyd oluna bilər:

Modul üzrə təlimi müvəffəqiyyətlə başa vurmuş dinləyici:

- peşə fəaliyyətinin ümumi əsaslarını şərh etməyi bacarır;
- ümumi pedaqogika, psixologiya və sosiologiyanın məzmununda və metodologiyasında yenilikləri izah etməyi bacarır, onları öz peşə fəaliyyətinə tətbiq edir;
- təhsilin fəlsəfi, elmi, metodoloji, siyasi, iqtisadi, hüquqi, praktik və s. əsaslarını şərh etməyi bacarır;
- təhsilin və tədris prosesinin idarə edilməsi, liderlik qabiliyyəti, valideynlərlə əlaqə, ünsiyyət və peşə fəaliyyətinin digər sahələri üzrə müvafiq peşə səriştəliliyi və dünyagörüşünə yiyələndiyini nümayiş etdirir.

*İkinci* modul üzrə gözlənilən ümumi təlim nəticələrinin aşağıdakı şəkildə göstərilməsi məqsədə uyğundur:

Modul üzrə təlimi müvəffəqiyyətlə başa vurmuş dinləyici:

- ixtisası üzrə fənnin metodika və metodologiyasını şərh etməyi bacarır;

- fənnin məzmununda və tədrisi metodikasındakı yenilikləri izah etməyi, müvafiq peşə səriştəliliyinə və dünyagörüşünə yiyələndiyini nümayiş etdirməyi, onları öz peşə fəaliyyətində tətbiq etdiyini nümayiş etdirməyi bacarır;
- tədris prosesində müxtəlif resurslardan səmərəli istifadənin əhəmiyyətini şərh etməyi, zəruri tədris materiallarını və vasitələrini seçdiyini, hazırladığını, məqsədyönlü istifadəni nümayiş etdirməyi bacarır.

*Üçüncü* modul üzrə gözlənilən təlim nəticələri isə aşağıdakı ardıcıllıqla əsas-landırıla bilər:

Modul üzrə təlimi başa vurmuş dinləyici:

- peşə fəaliyyəti üzrə yeni texnologiyalardan, innovativ nəzəriyyələrdən, metodlardan və qabaqcıl təcrübədən istifadənin əhəmiyyətini izah etməyi bacarır;
- peşə fəaliyyəti zamanı innovasiyalardan, yeni texnologiyalardan, qabaqcıl təcrübədən istifadə məqsədilə bilik, bacarıq və vərdişlərə, peşə səriştəliliyinə yiyələndiyini nümayiş etdirməyi bacarır;
- özünün fərdi maraqlarını, ehtiyac və tələbatlarının təmin olunduğunu nümayiş etdirməyi bacarır.

İxtisasartırma təhsilində keyfiyyətə nəzarət və onun təmin edilməsi məsələləri daim diqqətdə saxlanılmalıdır. Keyfiyyətə nəzarət məqsədi ilə müvafiq mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və özəl qrumlar tərəfindən kadrların ixtisasartırma təhsili haqqında müntəzəm yeniləşən məlumat bazası yaradılmalıdır.

*İxtisasartırma təhsilin səmərəli təşkilinin təhsilin keyfiyyətinin yüksəldilməsinə təsviri.*

Təhsil müəssisələrində ixtisasartırma təhsilə münasibətin daha ciddi olması, maliyyə vəsaitinin düzgün planlaşdırılması, kadrların ixtisasartırma təhsilin fərdi tələbatının öyrənilməsi, müasir təlim vasitələri və metodlarından səmərəli istifadə ixtisasartırma təhsil müəssisələrinin maddi texniki bazasının möhkəmləndirilməsi bu sahənin daha sürətli inkişafına zəmin yaradır.

İxtisasartırma təhsilinin səmərəli təşkili üçün aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılmalıdır:

1) məzmunun tələbata uyğunluğu;
2) ixtisasartırma təhsilinə cəlb olunanların tələb və ehtiyaclarının öyrənilməsi;
3) çevik ixtisasartırma proqramlarının modul mexanizmlərinin, nəticəyə görə kredit sisteminin tətbiqi, qabaqcıl dünya təcrübəsinin öyrənilməsi və tətbiq olunması;
4) sağlam rəqabət mühitinin yaradılması, keyfiyyəti yüksəltmək məqsədi ilə ixtisasartırma prosesinə çoxsaylı dövlət və qeyri hökümət təşkilatlarının cəlb olunması;
5) keyfiyyətə nəzarət, keyfiyyətin təmin olunması üçün elmi əsaslarla manitorinq mexanizminin tətbiqi;
6) maddi və mənəvi stimullaşdırma, kariyera üzrə peşə yüksəlişi, bir dərəcədən digərinə keçid üçün təminat;
7) peşəkar təlimçi korpusunun formalaşdırılması;
8) variativ proqramalrın tərtibi;
9) maddi-texniki bazanın zənginləşdirilməsi, əlavə təhsil üzrə məlumat və təcrübə bankının yaradılması;
10) təcrübi imkanlara üstünlük verilməsi;
11) nəticələrə görə qarşılıqlı cavabdehlik və.s.

Təcrübə göstərir ki, 30-dan artıq innovasiyanın tətbiq olunduğu təhsil sistemində ənənəvi metodlarla böyük uğurlar qazanmaq çox çətindir. Yenilik, yeni mühitə bələd olan kadr potensialı ilə həyata keçirilə bilər. Məhz belə bir şəraitdə əlavə təhsili səmərəli təşkil etmək və təhsilin keyfiyyətinin yüksəldilməsinə nail olmaq mümkündür. İxtisasartırma təhsilinə gələn dinləyici təhsilin sonunda öz iş yerinə yeni bilik və bacarıqlarla qayıtdıqda, təlim tərbiyə işinin səmərəliliyini artırmaq imkanları genişlənir.

Cəmiyyətin bu sifarişini reallaşdırmaq güclü maliyyə dəstəyi, maddi-texniki təchizat, yüksək peşəkarlığa malik olan kadr potensialı tələb edir. Son illərdə əlavə təhsil sisteminin təkmilləşdirilməsi baxımından məqsədyönlü tədbirlər həyata keçirilmişdir;

- təhsil sistemi, formaları, pillələri, müddəti, məzmunu, məqsədləri müəyyənləş-dirilmişdir;
- yaradılmış hüquqi bazanın reallaşdırılması üçün dövlətin maliyyə imkanları gündən-günə güclənir.

İxtisasartırma təhsilinə verilən ümumi tələblər. "Təhsil haqqında" Azərbay-can Respublikası qanununa uyğun olaraq ixtisasartırma təhsili əlavə təhsilin bir istiqaməti olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan kadrların fasiləsiz təhsil almaq imkanını təmin etmək məqsədi ilə təhsil müəssisələri tərəfindən həyata keçirilən təhsil növüdür. Bu təhsilin əsas məqsədi hər bir işçinin ixtisası üzrə intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsini və təkmilləşdirilməsini, daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli inkişafını təmin etməkdir.

Qanuna uyğun olaraq ümumi təhsil müəssisələrinin müəllimləri üçün ixtisasartırma təhsili aşağıdakı ümumi tələblərə cavab verməlidir:

- dövlətin təhsil siyasətinin reallaşdırılmasını və dinləyicilərin fərdi maraq və ehtiyaclarını təmin etməlidir;
- ixtisasartırma təhsili sistemində rəqabətli mühitin formalaşdırılması, dövlət təhsil müəssisələri ilə yanaşı qeyri hökümət təşkilatlarının və özəl qurumların da prosesdə iştirakı üçün şərait yaratmalıdır;
- müəssisəəsaslı ixtisasartırma modellərinin inkişaf etdirilməsi üçün imkan yaratmalıdır;
- ixtisasartırma təhsilinin Avropa və dünya təhsil məkanına inteqrasiyası üçün zəmin yaratmalıdır;
- dinləyicilərin ixtisasartırma təhsilinə cəlb edilməsi üçün motivasiya yaratmalıdır.
- İxtisasartırma təhsilində pedaqoji proses aşağıdakı prinsiplər əsasında qurulur:

Pedaqoji prosesin tamlığı. Pedaqoji prosesdə təlim məqsədlərinin reallaşdırılması kompleks şəkildə həyata keçirilir, onun zəminində isə məzmun, öyrədən və öyrənənin fəaliyyətini əhatə edən metod və vasitələr müəyyənləşdirilir.

Təlimdə bərabər imkanların yaradılması. Pedaqoji proses təlimdə bütün dinləyicilərə eyni şərait yaratmaqla onların potensial imkanlarından maksimum istifadə edir, eyni tələblərdən çıxış edir və güzəştlərə yol vermir.

Şəxsiyyətyönümlülük. Pedaqoji proses dinləyicinin məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişaf etdirilməsinə, mənimsədiyi informasiyaları səmərəli şəkildə tətbiqinə xidmət etməklə yanaşı, onun tələbat və ehtiyaclarını nəzərə almaqla təşkil edilir.

İnkişafyönümlülük. Pedaqoji proses daima dinləyicinin tədqiqatçı, yaradıcı, axtarışda olan mütəxəssis kimi hazırlanmasına yönəldilir, ona öz üzərində çalışmağın, özünütəhsilin fasiləsiz olaraq davam etdirilməsinin vacibliyini qavradır. Öyrədən müasir təhsil konsepsiyalarını bilməklə tədris etdiyi proqramın məqsədlərini aydın izah edir və bunun üçün lazım olan tədris materiallarını müəyyənləşdirir, dinləyiciləri müzakirəyə cəlb edir, düşünmə və müstəqil fikir yürütmə qabiliyyətlərini inkişaf etdirir.

Fəaliyyətin stimullaşdırılması. Pedaqoji proses öyrədən və öyrənən arasında qarşılıqlı fəaliyyət və əməkdaşlığa əsaslandığından stimullaşdırma təlimçinin dinləyicinin uğurlarını dəyərləndirməklə onun daha yüksək təlim nəticələrinə istiqamətləndirilməsini təmin edir. Dinləyici bazar iqtisadiyyatı şəraitinin tələbi olan rəqabətə tab gətirmək üçün dərin biliklər və çevik bacarıqlara yiyələnməyə şəxsi stimul göstərir.

Dəstəkləyici mühitin yaradılması. Pedaqoji proses müasir maddi-texniki baza ilə təchiz edilir, demokratik və humanitar prinsiplər əsasında sağlam, mənəvi-psixoloji mühitdə təşkil edilir, həm öyrədənlərin, həm öyrənənlərin maraq və ehtiyaclarının təmin edilməsi, təlimin effektivliyinin yüksəldilməsi üçün zəmin yaradır.

Təlim fəaliyyəti ilə tədqiqatın qarşılıqlı əlaqəsi. Dinləyicilər təlimin ilk mərhələlərindən tədqiqatlara cəlb edilir, məlumatlar toplayır, fərdi layihələri və ya digər tədqiqatları həyata keçirirlər.

Pedaqoji prosesin peşə fəaliyyəti ilə əlaqələndirilməsi. Pedaqoji proses təlimin peşə fəaliyyəti ilə əlaqələndirilməsini, tədris olunan proqramların peşə istiqamətində qurulmasını və dinləyicinin praktik olaraq hazırlanmasını təmin edir.

Yeni pedaqoji texnologiyaları və müasir təlim yanaşmalarını əks etdirən dərs-ekskursiya, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart dərslərdən istifadəyə üstünlük verilməli, təlim prosesinin mütəhərrikliyini təmin edən müxtəlif iş formalarından (kollektiv iş, qruplarla iş, cütlərlə iş, fərdi iş) istifadə olunmalıdır. Təlim prosesində dioloqa, yaradıcı fəaliyyətə əsaslanan fəal və interraktiv metodlardan istifadə edilməlidir. Aparılan təhlillər göstərir ki, ixtisasartırma təhsili demokratiya, humanist prinsiplər əsasında elə qurulmalıdır ki, müasir tələblərə cavab verən səviyyəyə çatdırılsın, bazar münasibətləri şəraitində bu növ təhsilə maraq yaratmaq üçün həlli vacib olan problemlər həll edilsin.

Pedaqoji kadrların ixtisas səviyyəsinin onun inkişaf dinamikasının qiymətləndirmə meyarlarının olmaması, pedaqoji kadrların attestasiyasına və əməyinin düzgün tarifləşdirilməsinə əngəl törədir. İxtisasartırma təhsilində isə ciddi problemlərin yaranması onun maliyələşdirilməsi ilə əlaqədardır. Bu təhsil pilləsi üçün yerli büdcədə ya vəsait nəzərdə tutulmur və ya vəsait çox az olur. Əksər hallarda ezamiyyə xərcləri ödənilmir və ya öz məqsədinə xərclənilmir. Bu vəziyyəti düzəltmək üçün nəzərdə tutulan maliyyə xərclərinin ixtisasartırma və yenidənhazırlanma təhsil müəssisələrində cəmləşdirilməsi məqsədə uyğun olar.

Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyasının IV strateji istiqaməti "müasir tələblər uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılmasını nəzərdə tutur. Bu istiqamət təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodologiyasına uyğun infrastrukturun yaradılması, təhsil müəssisələri şəbəkəsinin rasionallaşdırılması, distant təhsil, istedadlı və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təhsil və inkişaf, yaşlıların təhsili, peşə ixtisas və təhsil məsələləri üzrə məsləhət xidmətləri göstərən regional universal mərkəzlərin, müasir təminatlı peşə tədris mərkəzlərinin və komplekslərinin qurulması, kampusların yaradılması kimi tədbirləri ehtiva edir".

Strategiyadan aydın görünür ki, diplomdansonrakı təhsil sisteminin tərkib his-səsinə daxil olan proseslərin yeni modeli müəyyənləşdirilmiş, onların yeri, mahiyyəti, məzmunu, vəzifələri, əsas parametrləri konkretləşdirilmişdir. Təhsil sisteminin təkmil-ləşdirilməsi və inkişafı ilə bağlı strategiyadan sonra müəllim hazırlığının fasiləsiz təhsil sistemindəki yeni modeli verdi. Həmin model müəllimlərin ilkin hazırlığı, ixtisasartırma, yenidənhazırlanma və təkmilləşmə proseslərini özündə birləşdirir.

Hazırda respublikamızda 2019-cu ildən əlavə təhsilin fəaliyyəti pedaqoji universitetlərdə dayandırılmışdır.Yaxşı olardı diplomdansonrakı təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən hüquqi-normativ sənədlərin hazırlanması, onun müzakirəsinin təşkili, bu təhsil sisteminin informasiya bankının formalaşdırılması, təhsilin keyfiyyətinin yüksəldilməsi, onun ictimaiyyətin tələbatına uyğunluğunun müəyyən edilməsi, tələbata uyğun tədris plan və proqramlarının yeniləşdirilməsi işində müəllimlərə kömək göstərilməsi, təhsilin elmi əsaslarla təşkili prosesində yaxından iştirak etmək funksiyalarının dahada genişləndirilməsi tələbata uyğun olardı.

Respublikamızda aparılan islahat proqramlarının tələblərinə uyğun olaraq, təhsilin məzmununun yeniləşməsi, təlimdə yeni metod və texnologiyaların, dünya təhsil standartlarının tətbiqini, yeni informasiya, tədris elmi-metodiki təminatların hazırlığını nəzərə alaraq, ixtisasartırma və yenidənhazırlanma təhsil sisteminə münasibət yeniləşməli, bu məqsədlə həm təhsil sisteminin rəhbər orqanları, həm də pedaqoji işçilərin fasiləsiz təhsilinin həyata keçirilməsinə diqqət artırılmalı, qarşıya çıxan problemlər birgə həll edilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı 2014.
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat proqramı. Bakı-1999.
3. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası. Bakı-2007.

4. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli kurikulum), “Azərbaycan müəllimi” qəzeti. 1 dekabr 2006-cı il.
5. Əliyev F., Mədədov P. İxtisasartırma kurikulum çərçivəsində təkmilləşdirilməsi zərurəti. Azərbaycan məktəbi №4 Bakı-2010. s.80-85
6. Əliyev F., Mədədov P. Azərbaycan təhsil məkanının Boloniya modelinin Avropa ali təhsil sistemlərinə transformasiyası. BPKİYİ I Beynəlxalq Elmi Konfransın materialları. Bakı -9-11 noyabr-dekabr -2010 s.3
7. Nəzərov M.H. Sosial fəlsəfə. Dərs vəsaiti.Bakı-2024.652 s.
8. Nəzərov M.H.Nəbiyev Ə.M. Sosial idarəetmənin əsasları. Dərs vəsaiti. Bakı-2024.680 s.
9. Nəzərov M. Təhsil fəlsəfəsi. Dərs vəsaiti. Bakı-2022. 496 s.
10. Eminov A. Mədədov P. Pedaqogika. Dərs vəsaiti.“Kövsər nəşriyyatı” Bakı-2011(I cild).
11. Eminov A. Mədədov P. Pedaqogika. Dərs vəsaiti.“Kövsər nəşriyyatı” Bakı- 2012(II cild).
12. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı-2009.

## РЕЗЮМЕ

## СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ПОВЫШЕНИЮ КАЧЕСТВА ДОПОЛНИТЕЛЬ-НОГО ОБРАЗОВАНИЯ

**Полад Мададов**
**Низами Гулиев**

С учетом обновления содержания образования, применения новых методов и технологий в обучении, мировых стандартов образования, подготовки новой информации, образовательных научнометодических гарантий отношение к системе образования повышения квалификации и переподготовки должно быть изменено.Обновлены, с этой целью как органы управления системой образования,так и реализация непрерывного образования педагогических кадров, следует уделять больше внимания его реализации, а возникающие проблемы решать сообща.
**Ключевые слова:** Специализация, переподготовка, профессия, модуль, инновация, образование, деятельность.

## SUMMARY

## MODERN APPROACHES TO QUALITY IMPROVEMENT IN FURTHER EDUCATION

**Polad Madadov**
**Nizami Guliyev**

Taking into account the renewal of the content of education, the application of new methods and technologies in training, world education standards, the preparation of new information, educational scientific-methodical guarantees, the attitude to the education system of professional development and retraining should be renewed, for this purpose, both the governing bodies of the education system and the implementation of continuous education of pedagogical staff more attention should be paid to its implementation, and the problems encountered should be solved together.
**Keywords:** Specialization, retraining, profession, module, innovation, education, activity.